“Balakən Azərbaycanın çox gözəl guşəsidir” İlham ƏLİYEV




# YENİ BALAKƏN

İCTİMAİ-SİYASİ QƏZET ✦ 6 (24) ✦ 30 iyun 2026-cı il



# Azərbaycan Ordusunun müdafiə qüdrətinin artırılması daim diqqət mərkəzindədir

Ölkənin ərazi bütövlüyünün, suverenliyinin və təhlükəsizliyinin qorunmasında əsas vəzifəni icra edən ordunun gücləndirilməsi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi hər bir dövlət üçün prioritet vəzifədir. Azərbaycan da bütün dövrlərdə bu prioriteti əsas tutaraq Silahlı Qüvvələrinin gücləndirilməsi, onun modernləşdirilməsi istiqamətində zamanın tələblərinə uyğun addımlar atıb.

Bu gün yaranmasının 108-ci ilini qeyd etdiyimiz Azərbaycan Silahlı Qüvvələrinin indiki səviyyəyə gəlib çatması o qədər də asan başa gəlməyib. 1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən əsası qoyulan Azərbaycan Ordusunun bu günkü vəziyyətə gəlib çıxmasında, onun təkcə regionun deyil, eləcə də dünyanın güclü ordularından biri kimi özünü tanıtmasında Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətləri olub.

Təkcə müstəqillik illərində deyil, sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə də Ulu Öndər hərbi sahədə milli kadrların hazırlanmasına xüsusi diqqət ayıraraq bu sahədə ciddi addımlar atmağa müvəffəq oldu. Baxmayaraq ki, o dövrün tələbləri müttəfiq respublikalarda milli hərbi kadrların hazırlanmasına qarşı idi, lakin Ulu Öndər gərgin siyasi iradəsi və qətiyyəti ilə bu stereotipi aradan qaldıraraq 1971-ci ildə böyük zəhmət bahasına Cəmşid Naxçıvanskinin adını daşıyan hərbi liseyin yaradılmasına nail oldu. Hər nə qədər Sovet hakimiyyəti illərində Azərbaycan müstəqil ordudan məhrum olsa da, Ulu Öndərin sayəsində ölkənin hərbi ənənələri qorunub saxlanılırdı.

1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra bütün istiqamətlərdə olduğu kimi, müstəqil dövlətin milli ordusunun formalaşdırılması zərurəti yaranmışdı. Lakin müstəqilliyin ilk illərində yaşanan siyasi və iqtisadi çətinliklər, eləcə də Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ordu quruculuğu prosesini mürəkkəbləşdirirdi. Bir tərəfdən orduda olan nizamsızlıq, digər tərəfdən isə qeyri-qanuni silahlı birləşmələrin mövcudluğu və həmin birləşmələrdən bir çox hallarda hakimiyyət uğrunda mübarizədə vasitə kimi istifadə edilməsi Silahlı Qüvvələrdə başıpozuqluq yaratmışdı ki, bu da Azərbaycana qarşı təcavüzkarlıq siyasətinə başlamış Ermənistana yeni ərazilər zəbt etmək üçün əlverişli imkan verirdi.

Belə bir ağır şəraitdə yenə də xalqın və dövlətin imdadına Ulu Öndər Heydər Əliyev yetişdi. Bütün dövrlərdə özünün xilaskarlıq missiyası ilə tarix yazan Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtmasından sonra ordu quruculuğu sahəsində də yeni mərhələ başladı. Qısa müddətdə ölkədə siyasi sabitliyi bərqərar edən Heydər Əliyevin ilk addımı orduda nizamsızlığı aradan qaldırmaq, qeyri-qanuni silahlı birləşmələri ləğv edərək nizami ordu formalaşdırmaq oldu.

1994-cü il mayın 12-də Ermənistan–Azərbaycan hərbi münaqişəsində atəşkəs haqqında müqavilə imzalandıqdan sonra Azərbaycan Silahlı Qüvvələrinin formalaşması daha da sürətləndi. Həyata keçirilən uğurlu siyasət nəticəsində Silahlı Qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılmasına, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasına və döyüş ruhunun yüksəldilməsinə xüsusi diqqət ayrıldı. Ulu Öndər Heydər Əliyevin 22 may 1998-ci il tarixli Fərmanına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün — 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan olundu.

Heydər Əliyev Sovet hakimiyyəti dövründə olduğu kimi, müstəqillik illərində də hərbi sahədə milli kadrların hazırlanmasına xüsusi diqqət yetirirdi. Bu mənada, hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədilə Heydər Əliyevin 1999-cu il fevralın 20-də Hərbi Akademiyanın yaradılması haqqında Fərmanı xüsusi əhəmiyyət kəsb edirdi. Ordu quruculuğu prosesində əsas diqqət şəxsi heyətin peşəkarlığının artırılmasına, döyüş hazırlığının gücləndirilməsinə və maddi-texniki bazanın müasirləşdirilməsinə yönəldilmişdi. Bu sırada NATO ilə sıx və səmərəli əməkdaşlıq zamanın tələbinə çevrilmişdi. Beləliklə, təşkilatla qarşılıqlı faydalı əməkdaşlıq ordu quruculuğu prosesinin təkmilləşdirilməsinə yol açdı, Silahlı Qüvvələrimiz modernləşdirildi və müasir standartlara uyğunlaşdırıldı.

Heydər Əliyev siyasi kursunu uğurla davam etdirən cənab Prezident İlham Əliyevin ordu quruculuğuna, onun maddi-texniki bazasının gücləndirilməsinə yönəlmiş siyasəti nəticəsində Azərbaycan Silahlı Qüvvələri qısa müddətdə regionun ən qüdrətli ordusuna çevrildi. Nəticə etibarilə, nüfuzlu “Global Firepower” mərkəzinin 55 göstərici əsasında hazırladığı hesabatda Azərbaycan Ordusu Cənubi Qafqazda birinci, dünyada isə ilk əlli ordu sırasında yer aldı.

Ali Baş Komandanın hərbi sahəyə diqqət və qayğısı nəticəsində regionun qüdrətli ordusuna çevrilən Azərbaycan Ordusu artıq torpaqlarını işğaldan azad etmək iqtidarında idi və bunu ilk dəfə 2016-cı ilin Aprel döyüşləri zamanı sübut etdi. Ermənistan ordusunun təxribatlarına cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq Füzuli, Cəbrayıl və Tərtər rayonlarının işğal altındakı ərazilərinin 2 min hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi.

Həm Aprel döyüşləri, həm də ondan sonra Azərbaycan Ordusunun 2018-ci ilin mayında qazandığı Günnüt zəfərindən Ermənistan əslində nəticə çıxarmalı idi. Lakin Ermənistanın işğalçılıq siyasətini davam etdirməkdə israrlı görünməsi nəticə etibarilə İkinci Qarabağ müharibəsinə yol açdı. Beləliklə, Azərbaycan Ordusu tarixi Zəfərə imza ataraq torpaqlarını işğaldan azad etdi, cəmi 23 saat 43 dəqiqə ərzində Qarabağda antiterror əməliyyatları həyata keçirməklə ərazi bütövlüyünü tamamilə bərpa etdi.

Bu gün də Azərbaycan Ordusunun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, onun maddi-texniki təchizatının yaxşılaşdırılması daim diqqət mərkəzindədir. Bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanda son illərdə formalaşan və dinamik inkişaf edən hərbi sənaye hesabına müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları və atıcı silahlar istehsal olunur. Azərbaycan öz zavodlarında istehsal etdiyi hərbi təyinatlı məhsullarla Ordumuzu əhəmiyyətli dərəcədə təchiz edə bilir və Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə hərbi sənaye kompleksi yaradılıb.

Ən qürurverici məqam ondan ibarətdir ki, İkinci Qarabağ Zəfərindən sonra dünyanın inkişaf etmiş ölkələri Azərbaycan Ordusunun döyüş taktikasını öyrənməyə başlayıblar.

**Nəsib Məhəməliyev**
**Milli Məclisin deputatı**

# “Qurtuluşdan Zəfərə” – Balakəndə Milli Qurtuluş Gününə həsr olunmuş konfrans




Balakən rayonunda 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş silsilə tədbirlər davam edir. Dünən Balakən Uşaq İncəsənət Məktəbində keçirilən tədbirin ardınca bu gün Yeni Azərbaycan Partiyası (YAP) Balakən rayon təşkilatının inzibati binasında “Qurtuluşdan Zəfərə” adlı konfrans təşkil olunub. Tədbir YAP Balakən rayon təşkilatı, İncəsənət məktəbi və Balakən Rayon İcra Hakimiyyətinin birgə təşəbbüsü ilə baş tutub.

Konfransda Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev, YAP rayon təşkilatının sədri Azad Balayev, idarə və müəssisələrin əməkdaşları, şəhid ailələrinin üzvləri, qazilər, partiya fəalları və ictimaiyyət nümayəndələri iştirak ediblər. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda çıxış edən YAP Balakən rayon təşkilatının sədri Azad Balayev Milli Qurtuluş Gününün tarixi əhəmiyyətindən bəhs edərək bildirib ki, bu gün Azərbaycan xalqının yaddaşına dövlətçiliyin qorunması, sabitliyin bərpası və inkişafın başlanğıcı kimi əbədi həkk olunub. O vurğulayıb ki, Ulu Öndər Heydər Əliyevin müdrik siyasəti nəticəsində ölkəmiz müstəqilliyini qoruyaraq güclü dövlətə çevrilib, Prezident İlham Əliyevin rəhbərliyi ilə isə bu siyasət müasir çağırışlara uyğun şəkildə davam etdirilərək Azərbaycanı zəfərə aparıb. “Qurtuluş missiyası ilə xalqımızı məhv olmaq təhlükəsindən xilas edən Heydər Əliyevin yolunu Müzəffər Ali Baş Komandan İlham Əliyev 44 günlük Vətən müharibəsində torpaqlarımızı işğaldan azad etməklə zəfərlə tamamladı,” – deyə Azad Balayev qeyd edib.

Tədbirdə çıxış edən rayon Ağsaqqallar Şurasının üzvü Meysarat Qaysayeva, Hənifə kənd tam orta məktəbinin direktoru Cavanşir Alqayev, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyi rayon şöbəsinin sədri Cavanşir İsmayılov, hərbi jurnalist Şaban Daşdəmirov və Gənclər Evi Sosial Xidmət Müəssisəsinin əməkdaşı Fuad Mikayılov Milli Qurtuluş Gününün xalqımızın taleyində oynadığı mühüm rolu, Ulu Öndərin dövlətçiliyin möhkəmlənməsindəki xidmətlərini xüsusi vurğulayıblar.

Konfrans çərçivəsində rayonun ictimai-siyasi həyatında fəallığı ilə seçilən partiya veteranlarına hədiyyələr təqdim olunub, yeni qəbul olunmuş üzvlərə isə partiya vəsiqələri verilib. Sonda Yeni Azərbaycan Partiyasının himni səsləndirilib.

**Yeni Balakən**

# Balakəndə Dövlət Qulluqçularının Peşə Bayramı Günü qeyd olunub



İştirakçılar əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüb, dahi şəxsiyyətin əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Çıxış edən Balakən Rayon İcra Hakimiyyəti başçısının müavini Turan Dibirov dövlət qulluqçularını peşə bayramı münasibətilə təbrik edib. O, Azərbaycanda müasir dövlət qulluğu sisteminin formalaşması və inkişafının

O, həmçinin Möhtərəm Prezidentin 2006-cı il 25 may tarixli Sərəncamı ilə Dövlət qulluqçularının peşə bayramı gününün təsis olunmasının dövlət qulluqçularına göstərilən diqqət və qayğının bariz nümunəsi olduğunu diqqətə çatdırıb.

Digər çıxış edənlər də dövlət qulluğunun ölkənin inkişafında, idarəetmənin təkmilləşdirilməsində, qanunçuluğun təmin edilməsində və vətəndaşlara layiqli xidmət göstərilməsində mühüm rol oynadığını



23 iyun – Dövlət Qulluqçularının Peşə Bayramı Günü münasibətilə Balakən Rayon İcra Hakimiyyəti tərəfindən tədbir təşkil olunub. Tədbirdə rayon icra hakimiyyəti başçısının müavini Turan Dibirov, icra hakimiyyətinin əməkdaşları, eləcə də müxtəlif dövlət qurumlarında çalışan dövlət qulluqçuları iştirak ediblər.

Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu vurğulayıb. Turan Dibirov qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlət qulluğu sistemi davamlı olaraq təkmilləşdirilir, həyata keçirilən islahatlar isə səmərəli və şəffaf idarəetmənin formalaşmasına mühüm töhfə verir.

vurğulayıblar. Onlar dövlət qulluqçularına peşəkarlıq, vətənpərvərlik və yüksək məsuliyyət hissi ilə fəaliyyət göstərmələrinin vacibliyini qeyd edərək, gələcək işlərində uğurlar arzulayıblar.

**Yeni Balakən**

# Milli Qurtuluş Günü Balakən rayonunda silsilə tədbirlərlə qeyd olunub




15 İyun – Milli Qurtuluş Günü Balakəndə təntənəli şəkildə qeyd edilib. Əvvəlcə Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev, rayon hüquq-mühafizə orqanlarının rəhbərləri və əməkdaşları, idarə, müəssisə və təşkilatların kollektivləri, şəhid ailələri, qazilər və rayon ictimaiyyətinin nümayəndələri Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə tər güllər qoyaraq əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Ard 2-ci səhifədə

# Milli Qurtuluş Günü Balakən rayonunda silsilə tədbirlərlə qeyd olunub

Əvvəli 1-ci səhifədə



Daha sonra rayon Mədəniyyət Mərkəzində Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin və Balakən şəhər Uşaq İncəsənət Məktəbinin birgə təşkilatçılığı ilə 15 İyun – Milli Qurtuluş Gününə həs olunan "Milli Qurtuluş Dövlətçiliyimizin Zəfəri" adlı konsert proqramı təşkil olunub. Konsertdən əvvəl qonaqlar rayon Mədəniyyət Mərkəzinin foyesində şagirdlərin əl işlərindən ibarət sərgi ilə tanış olublar. Konsertdən əvvəl Ulu Öndər Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səslənib.




Çıxışlarda Ümummilli Liderin xalqımız qarşısındakı əvəzsiz xidmətləri xatırlanıb, müstəqil respublikamızın son illər əldə etdiyi uğurların birbaşa Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğu vurğulanıb. Bildirilib ki, məhz Ulu Öndərin respublika rəhbərliyinə qayıdışından sonra ölkəmiz sürətli inkişaf yoluna qədəm qoyub, onun layiqli davamçısı İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində ölkənin iqtisadi qüdrəti daha da artıb, torpaqlarımız işğaldan azad olunub, suverenliyimiz bərpa edilib, müstəqil Azərbaycan dünya birliyində öz layiqli yerini tutub.

Konsertdə şagirdlərin ifasında səslənən rəngarəng musiqi nömrələri, nümunələri, vətənpərvərlik ruhunda təqdim olunan çıxışlar və milli musiqimizin incilərindən ibarət proqram tamaşaçıların marağına səbəb olub. Eyni zamanda konsertdə Ulu Öndər Heydər Əliyevin həyatına və siyasi fəaliyyətinə, ölkəmizin əldə etdiyi uğulara həsr olunan videolar nümayiş etdirilib.

Günün sonunda isə Balakən Rayon İcra Hakimiyyətinin və rayon Mədə-niyyət Mərkəzinin təşkilatçılığı ilə Milli Qurtuluş Günü ilə əlaqədar Heydər Əliyev adına mədəniyyət və istirahət parkında möhtəşəm konsert proqramı təşkil olunub. Konsert proqramında rayonun tanınmış incəsənət ustaları bir-birindən maraqlı ifaları ilə çıxış ediblər. Təşkil olunan möhtəşəm bayram konserti böyük coşqu ilə qarşılanıb.

**Yeni Balakən**

# Balakəndə fındıqçılığın düşməni –Amerika ağ kəpənəyi ilə mübarizə yolları



Karantin obyekti olan Amerika ağ kəpənəyinin polifaqlığı, yayıldığı ərazinin iqlim şərtlərindən asılı olaraq, il ərzində 1-4 nəsil verməsi, meyvələrə, park, meşə və kol bitkilərinə güclü ziyan vurma qabiliyyəti, yayılma tezliyi və yüksək məhsuldarlığı onun təhlükəli zərərverici olduğunu deməyə imkan verir. Zərərvericinin bitkiyə, xüsusən də meyvə bitkilərinə vurduğu ziyan məhsul itkisi ilə nəticələnir. Amerika ağ kəpənəyinin inkişafı üçün optimal şərait 70-80% nisbi rütubətlilik və +22-27°C temperatur hesab edilir. Zərərverici həm yetkin, həm də sürfə mərhələsində bitkinin meyvələri, cavan budaqları, yarpaqları, kökü və toxumları ilə qidalanır. Amerika ağ kəpənəyinin məhv edilməsi üçün yerli şərait nəzərə alınmaqla, özündə fitosanitar, kimyəvi, bioloji, fiziki və mexaniki mübarizə tədbirlərini birləşdirən tədbirlər sistemi həyata keçirilməlidir. Amerika ağ kəpənəyi Azərbaycan üçün yeni invaziv növ olması nəzərə alınaraq, aşkar edildiyi təqdirdə, onun sayından asılı olmadan bütün ocaqlarının tamamilə məhv edilməsi üçün mübarizə tədbirləri tətbiq edilməlidir.

Təəssüf ki, bu zərərverici artıq bir neçə ildi Balakən rayonunda da kənd təsərrüfatına, fərdi təsərrüfatlara ciddi ziyan vurur. Özəlliklə insanların böyük ümidlə göz dikdikləri,rayonumuz üçün vacib sahə olan fındıqçılığı tamamilə məhv edir.

Rayon rəhbəri Natiq Ağayev bu gün Kortala kəndində həm fərdi təsərrüfatda, həm də fındıq bağlarında olaraq,təsərrüfat sahibləri,kənd sakinləri, mütəxəssislərlə görüşdü. Amerika ağ kəpənəyinin vurduğu zərəri yerində öyrənərək bununla daha səmərəli, təhlükəsiz mübarizə yollarını müəyyən etmək üçün kənd sakinlərini,mütəxəsisləri dinləmiş, fikirləri, təklifləri ilə maraqlanmışdır.Görüşdə iştirak edən Balakən Dövlət Aqrar İnkişaf Mərkəzinin direktor əvəzi Elvin Səmədov, Balakən rayonu Bitki Mühafizə Mərkəzinin rəisi Turac Səfərli zərərverici haqda geniş, dolğun məlumat verərək,görülən işlər, aparılan mübarizə tədbirləri barədə danışdılar. Amerika ağ kəpənəyinin bir neçə üsulla məhv etdiklərini bildirdilər.Elə bu vaxtı DAİM-ə məxsus dərman çiləyici qoşquya malik traktor da sahəyə,fındıq bağını kimyəvi üsulla dərmanlamaq üçün daxil olmuşdu.Amma nədənsə bu kimyəvi müdaxilələr heç də rəhbərin ürəyincə deyildi.Natiq müəllim kimyəvi müdaxilənin fəsadlarından danışarkən bu vasitələrdən daha effektli,daha zərərsiz,məsələni kökündən həll edəcək,mütəxəssisə belə gərək olmadan hər bir təsərrüfat sahibinin özünün fərdi şəkildə edə biləcəyi mexaniki vasitə olan,uzun saplı,yerində duraraq ağacın istənilən bölgəsinə çata bilən əldə düzəltmə məşəl ilə zərərli bölgənin zərərverici ilə birgə yandırılaraq məhv edilməsinin daha uyğun olduğunu bildirib. Bu üsul həm ekoloji baxımdan daha təhlükəsizdir, həm də zərərvericinin kökündən məhv edilməsinə imkan yaradır.

Balakən fındıqçılığı üçün böyük təhlükə olan Amerika ağ kəpənəyi ilə mübarizə yalnız mütəxəssislərin deyil, hər bir təsərrüfat sahibinin məsuliyyətidir. Əgər bu mübarizə vaxtında və düzgün aparılarsa, fındıq bağlarımızı qorumaq, kənd təsərrüfatımızı gələcək nəsillərə sağlam şəkildə ötürmək mümkün olacaq. Çünki sağlam bağ – sağlam məhsul, sağlam məhsul isə sağlam gələcək deməkdir.

**Yeni Balakən**

# "Dünyanın hər yerində xoşbəxt olsun uşaqlar" adlı möhtəşəm tədbir




İyunun 4-də Balakən şəhər Mədəniyyət Mərkəzində uşaqların sevinci, musiqi və rəqs ahəngi ilə birləşən bayram tədbiri keçirildi. "Dünyanın hər yerində xoşbəxt olsun uşaqlar" adlı tədbir Balakən Rayon Mədəniyyət Mərkəzi və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə baş tutdu. Tədbirdə rayonun məktəbəqədər təhsil müəssisələrinin balaca fidanları, valideynlər, müəllimlər və ictimaiyyət nümayəndələri iştirak etdilər.



Səhnə və zal şarlarla, güllərlə bəzədilmişdi, uşaqların bayram ovqatını daha da artıran ab-hava yaradılmışdı. Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və vətən uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla anılaraq başlayan tədbirdə "Pöhrə" Təlim və İnkişaf Mərkəzinin təsisçisi Züleyxa Dibirova qonaqları salamlayaraq çıxışa başladı.Züleyxa xanım 1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü və 15 İyun – Milli Qurtuluş Gününün əhəmiyyəti barədə danışdı, Ulu Öndər Heydər Əliyevin uşaqlara göstərdiyi qayğı və sevgidən söz açdı..




Balakən rayon təhsil sektorunun müdiri Mehparə Mirzəyeva çıxışında uşaqların sağlam böyüməsi, keyfiyyətli təhsil alması və xoşbəxt gələcəyi naminə görülən işləri vurğuladı.

Daha sonra musiqili-əyləncəli proqram təqdim olundu. Balakən şəhər 1, 2, 3 və 4 nömrəli körpələr evi-uşaq bağçaları, "Pöhrə" Təlim və İnkişaf Mərkəzi, kənd bağçaları və Mədəniyyət Mərkəzinin rəqs dərnəyi bir-birindən maraqlı səhnəciklər, mahnılar və rəqslərlə çıxış etdilər. "Bizim şəhərimiz bizim gələcəyimizdir!", "Biz ki varıq, Azərbaycanlıyıq", "Sülh" kompozisiyası, "Pərilər ölkəsi", "Birlik", "Bakı, sabahın xeyir" kimi səhnələr uşaqların arzularını, vətən sevgisini və sülh istəklərini ifadə etdi.

Tədbir boyu "Qıtqılıda", "Papatya", "Bonbon" kimi rəqslər, moda nümayişi, flaşmoblar və mahnılar tamaşaçılara bayram ovqatı bəxş etdi. Palyaço və qurbağa kimi personajların çıxışları isə uşaqların sevincini daha da artırdı.

Sonda tədbir "Dünyanın hər yerində xoşbəxt olsun uşaqlar" arzusu ilə yekunlaşdı. Balakəndə keçirilən bu bayram uşaqların istedadını, yaradıcılığını və xoşbəxt gələcəyə olan ümidlərini bir daha nümayiş etdirdi.

***P.S. "Pöhrə" Təlim və İnkişaf Mərkəzi yaşca və tutumca digər iştirakçıların ən kiçiyi olsa da,seçdiyi mövzu,bu mövzudakı səhnə çıxışı,tamaşası,performansı digərlərindən seçilirdi.***

**Yeni Balakən**

# Balakən rayonunda yaş barama tədarükünə start verilmişdir

Balakən rayonunda barama istehsalı sahəsində qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi məqsədilə Balakən Dövlət Aqrar İnkişaf Mərkəzi tərəfindən 600 qutu ipəkqurdu 97 kümçüyə paylanılmış, həmçinin kümçülərin "Azərİpək" MMC ilə müqavilə bağlanılması təmin olunmuşdur. Azərbaycanda yaş barama istehsalı dövlət tərəfindən subsidiyalaşdırılır. Kümçülər yaş baramanı kiloqramı 5 manatdan "Azərİpək" MMC-yə təhvil verirlər. Dövlət isə əlavə olaraq hər kiloqram yaş barama istehsalına görə fermerlərə 6 manat subsidiya ödəyir. Nəticədə fermer təhvil verdiyi hər kiloqram yaş baramaya görə ümumilikdə 11 manat gəlir əldə edir.

Azərbaycanda, o cümlədən Balakən rayonunda yaş barama tədarükünə start verilmişdir. Rayon rəhbəri Natiq Ağayev bu gün tədarük məntəqəsinə gələrək kümçülərlə görüşmüş,gətirdikləri baramaya baxıb məhsulla tanış olub.Kümçüləri dinləyərək problemləri ilə maraqlandı.Onları təbrik edərək,zəhmətlərinin bəhrəsinin bərəkətli olmasını,gələn il daha yüksək nəticə göstərərək bundan da artıq bol qazanc götürmələrini arzuladı.Təhvil prosesini yerində izləyərək,tapşırıq və tövsiyyələrini verdi.

Kümçülər tərəfindən 12.06.2026-cı il tarixədək tədarük məntəqəsinə 1799,3 ton yaş barama təhvil verilmişdir. Cari ildə



Balakən rayonunda 24,0 ton barama istehsalı nəzərdə tutulur.

**Elvin Səmədov**
**Balakən Dövlət Aqrar İnkişaf Mərkəzi**

# Su təsərrüfatı və meliorasiya işçilərinin peşə bayramı münasibətilə



5 iyun Azərbaycanda su təsərrüfatı və meliorasiya işçilərinin peşə bayramı günü kimi qeyd olunur. Bu gün ölkənin su ehtiyatlarının səmərəli idarə olunması, meliorasiya və irriqasiya sistemlərinin inkişafı, içməli su təminatı və ekoloji tarazlığın qorunması istiqamətində çalışan mütəxəssislərin zəhmətinə verilən dəyərin bariz nümunəsidir. Onların fədakar fəaliyyəti kənd təsərrüfatının inkişafında, əhalinin dayanıqlı su ilə təmin olunmasında və təbiətin mühafizəsində mühüm rol oynayır.

Bu əlamətdar gün münasibətilə Su Ehtiyatları Agentliyi İşçilərinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsi və Balakən Suvarma Sistemləri İstismar İdarəsi tərəfindən idarədə çalışan bir qrup əməkdaş Təşəkkürnamə və Fəxri Fərmanlarla təltif olunmuşdur. Bu addım həm onların peşəkar fəaliyyətinə verilən yüksək qiymətin göstəricisi, həm də gənc mütəxəssislərə stimul verən nümunədir.

Tədbir çərçivəsində kollektiv şəkildə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulmuş, daha sonra Şəhidlər Xiyabanı ziyarət edilmişdir. Bu mərasim həm milli yaddaşın qorunmasına, həm də gənc nəsildə vətənpərvərlik ruhunun güclənməsinə xidmət edir. Ulu Öndərin su təsərrüfatı sahəsinə verdiyi önəm və bu istiqamətdə həyata keçirilən genişmiqyaslı layihələr bu gün də öz bəhrəsini verməkdədir.

Su təsərrüfatı və meliorasiya işçilərinin peşə bayramı yalnız bir peşə sahəsinin qeyd günü deyil, həm də ölkənin sosial-iqtisadi inkişafında mühüm rol oynayan insanların əməyinə hörmətin təcəssümüdür. Onların zəhməti sayəsində kənd təsərrüfatı məhsuldarlığı artır, içməli su təminatı yaxşılaşır, ekoloji tarazlıq qorunur. Bu səbəbdən də hər bir əməkdaşın fədakarlığı cəmiyyət tərəfindən yüksək qiymətləndirilməlidir.

Sonda bütün su təsərrüfatı və meliorasiya işçilərini peşə bayramı münasibətilə təbrik edir, onlara sağlamlıq, uğurlar və yeni nailiyyətlər arzulayırıq.

**Yeni Balakən**



# Balakəndə 1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş konsert



Balakən rayonunda uşaqların sevinci, musiqinin sehrli ahəngi ilə birləşdi. İyunun 1-də – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Balakən Uşaq İncəsənət Məktəbi və Şəki şəhər 2 nömrəli Uşaq Musiqi Məktəbinin birgə təşkilatçılığı ilə möhtəşəm konsert proqramı keçirildi.

Tədbirdə Şəki-Zaqatala Regional Mədəniyyət İdarəsinin əməkdaşları, mədəniyyət müəssisələrinin nümayəndələri, valideynlər və ictimaiyyət iştirak edirdi. Çıxışlarda vurğulandı ki, uşaqların hüquqlarının qorunması, onların sağlam, savadlı və vətənpərvər ruhda böyüməsi dövlət siyasətinin əsas istiqamətlərindəndir. Mədəniyyət və incəsənət sahəsində həyata keçirilən tədbirlər isə uşaqların yaradıcılıq qabiliyyətlərinin inkişafında, estetik zövqünün formalaşmasında və cəmiyyətə inteqrasiyasında mühüm rol oynayır.

Konsert proqramı çərçivəsində hər iki məktəbin şagirdləri zəngin və rəngarəng musiqi nömrələri ilə çıxış etdilər. Azərbaycan bəstəkarlarının əsərləri ilə yanaşı, dünya musiqisinin incilərinə də yer verildi. Balaca ifaçıların səmimi çıxışları tamaşaçılara bayram ovqatı bəxş etdi, onların istedadı və musiqiyə olan sevgisi alqışlarla qarşılandı.

Bu tədbir Balakəndə uşaqların bayramına xüsusi bir rəng qatdı. Musiqi və incəsənət vasitəsilə onların yaradıcılıq dünyasına açılan pəncərə, gələcəkdə daha böyük uğurların başlanğıcı kimi yaddaşlarda qalacaq.

**Yeni Balakən**

# Balakəndə Naxçıvan Dövlət Uşaq Filarmoniyasının möhtəşəm konserti





İyunun 1-i – Uşaqların Beynəlxalq Müdafiəsi Günündə Balakən şəhəri musiqi və sevinclə doldu. Heydər Əliyev adına mədəniyyət və istirahət parkında keçirilən tədbirdə Naxçıvan Dövlət Uşaq Filarmoniyası səhnəyə çıxaraq balakənlilərə unudulmaz anlar yaşatdı.

Konsert proqramı Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad olunması və Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başladı. Bu anlar tədbirə xüsusi bir ruh qatdı, həm milli qüruru, həm də uşaqların bayram sevincini birləşdirdi.

Ardınca Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin sektor müdiri Həcər Məmmədova çıxış edərək göstərilən qonaqpərvərliyə görə Balakən Rayon İcra Hakimiyyətinə təşəkkürünü bildirdi. Onun sözlərində həm mədəniyyətin birləşdirici gücü, həm də bölgələrarası əlaqələrin önəmi vurğulandı.

Səhnəyə çıxan balaca ifaçılar isə tamaşaçıların qəlbini fəth etdilər. Onlar milli musiqimizi və klassik əsərləri böyük peşəkarlıqla təqdim edərək hər bir dinləyicidən alqış qazandılar. Uşaqların səmimi ifaları, musiqiyə olan sevgiləri və istedadları konserti daha da rəngarəng etdi.

Tədbirin əsas məqsədi uşaqların yaradıcılıq potensialını inkişaf etdirmək, onların musiqi dünyasına daha geniş imkanlar açmaq və bölgələrarası mədəni əlaqələri gücləndirmək idi. Bu baxımdan konsert həm maarifləndirici, həm də mədəni dəyər daşıyan bir hadisə kimi yadda qaldı.

Konsertin sonunda Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev çıxış edərək tədbirin yüksək səviyyədə təşkil olunduğunu vurğuladı, iştirakçılara və təşkilatçılara təşəkkürünü bildirdi. O, bu cür tədbirlərin uşaqların gələcək inkişafında mühüm rol oynadığını qeyd etdi.

Sonda iştirakçılara xatirə hədiyyələri təqdim olundu. Bu hədiyyələr uşaqların sevincini daha da artırdı və onların yaddaşında bu günü unudulmaz bayram kimi həkk etdi.

**Yeni Balakən**

# Balakəndə möhtəşəm konsert gecəsi







İyunun 12-də Balakən rayon Mədəniyyət Mərkəzində musiqi və rəqs bayramı yaşandı. Fikrət Əmirov adına Əməkdar kollektiv Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı regionlarda mədəniyyətin əlçatanlığının artırılması proqramı çərçivəsində möhtəşəm qastrol konserti ilə çıxış etdi.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin təşəbbüsü və təşkilatçılığı ilə həyata keçirilən bu layihə "Azərbaycan Mədəniyyəti – 2040" Konsepsiyasının prioritet istiqamətlərinə uyğun olaraq, ölkə üzrə vahid mədəni ekosistemin formalaşdırılması və regionlarda mədəni həyatın zənginləşdirilməsini hədəfləyir.

Konsertdə Balakən Rayon İcra Hakimiyyətinin nümayəndələri, müxtəlif idarə və müəssisələrin əməkdaşları, şəhid ailələrinin üzvləri və ictimaiyyət iştirak edirdi. Ansamblın ifasında səslənən milli musiqi inciləri, xalq mahnıları və rəqslər tamaşaçılara unudulmaz anlar yaşatdı, zalda alqışlar uzun sürə davam etdi.

Bu qastrol konserti bir daha sübut etdi ki, Azərbaycan mədəniyyəti yalnız paytaxtda deyil, regionlarda da yüksək səviyyədə təqdim olunur. Balakənlilər üçün bu musiqi axşamı həm milli irsin təntənəsi, həm də mədəniyyətin birləşdirici gücünün parlaq nümunəsi oldu.

**Yeni Balakən**

# BALAKƏNDƏ SON ZƏNG TƏNTƏNƏSİ



Respublikanın hər yerində olduğu kimi bu gün Balakəndə də ümumtəhsil məktəblərində buraxılış günüdür.9-cu və 11-ci sinifləri bitirən şagirdlər məzun olur,onlar üçün son zəng çalınır.Çalınan zəng şagird,orta məktəb həyatı üçün son olsada artıq müstəqil,yeni həyatlarının başlanğıcının cingiltisidir. İndidən sonra məzunlardan kimisi ali təhsil yolunu seçəcək, kimisi Vətən qarşısında əsgər borcunu yerinə yetirəcək, kimiləri isə həyatın müxtəlif sahələrində öz ayaqları üstündə duraraq müstəqil addımlar atacaqlar...

Balakən rayonunda 45 ümumtəhsil müəssisəsindən 1120 şagird məzun oldu.Hər müəssisədə biri birindən gözəl son zəng tədbirləri keçirildi."Yeni Balakən" qəzeti olaraq Balakən şəhərindəki dörd məktəbdən üçündə olduq,ordakı rəngbərəng tədbirlərdən görüntülər çəkdik.Vətən Müharibəsi Qəhrəmanı Amin Novruzovun adını daşıyan liseydə,Nizami Gəncəvi adına şəhər 1 saylı məktəbdə, İmadəddin Nəsimi adına şəhər 2 saylı məktəbdə şagirdlər,müəllimlər tədbir üçün yaxşı hazırlaşmış,son zəngi vida mərasimdən daha çox gələcək müstəqil həyata atılan ilk addımın sevinci havasında təşkil etmişdilər. Doğrudur həyacan, ayrılıq göz yaşları üzlərdə görünürdü amma gələcək sərbəst, parlaq həyatın ümid və xəyal rüzgarları üzlərdəki o ifadəni tələsik silirdi..

Tədbirlər qonaqlarla da zəngin idi.Liseydə Balakən RİH-in müavini Turan Dibirov həm valideyin həm də nümayəndə qismində,Nizami adına şəhər 1 saylı məktəbdə RİH-dən Rasim Paçalov, təhsildən nümayəndə,Nəsimi adına məktəbdə RİH-dən Nərgiz Hacıxanova, şəhid ailələri və digər qonaqlar iştirak edirdilər. Balakən Polis Şöbəsinin əməkdaşları bütün məktəblərdə asayişin keşiyində duraraq ictimaiyyətin təhlükəsizliyini təmin etdilər.

Məndən soruşacaq olsanız-ən çox hansı tədbiri bəyəndin - deyə: Təbii ki, hamısı maraqlı, müxtəlif mövzularda,gərgin əmək və zəhmətlə ərsəyə gələn gözəl tədbirlər idi.Amma Nizami adına 1 saylı məktəbin tədbiri, yanaşması, mövzusu bir başqaydı. Orda məzunlar sanki bir məktəbi bitirib digər məktəbə addım atırdılar.Mövzu tarix, vətənpərvərlik, bayraq, dövlətçilik və ən əsası da vizionları dövlətimizin yön aldığı doğru, gerçəklər istiqamətində idi. Xüsusilə Türk Dövlətləri Birliyinə vurğu edən bayraq kompozisiyası möhtəşəmliyi ilə seçildi və tamaşaçılarda dərin təəssürat yaratdı.

Balakən məktəblərində keçirilən son zəng tədbirləri bir daha göstərdi ki, gənclərimiz yalnız biliklə deyil, həm də milli-mənəvi dəyərlərlə yetişdirilir. Bu gün məktəb həyatı ilə vidalaşan məzunlar sabahın tələbəsi, əsgəri, müstəqil vətəndaşı kimi cəmiyyətin inkişafına öz töhfələrini verəcəklər. Onların yoluna uğurlar arzulayırıq.

**Yeni Balakən**








# Balakəndə kənd təsərrüfatının inkişafı dövlətin diqqət mərkəzində



### Çeşidli fəaliyyət – davamlı iqtisadiyyat

Zaur Əhmədiyevin təsərrüfatı yalnız meyvəçiliklə məhdudlaşmır. Burada heyvandarlıq və balıqçılıq da inkişaf etdirilir. Bu isə fəaliyyətin mövsümilikdən çıxaraq il boyu davamlı olmasına imkan yaradır. Beləliklə, təsərrüfatda 12 ay iş olur, insanlar çalışır, iqtisadiyyat isə dövrilik qazanır.

**Nüsrət Əsgərov:** "Əgər hava şəraiti normal keçsə, bu il hər hektardan 5-6 ton məhsul götürəcəyəm. Bu, bizim üçün böyük nailiyyətdir."

**Zaur Əhmədiyev:** "Məqsədim yalnız məhsul istehsalı deyil, həm də insanlara iş imkanı yaratmaqdır. İqtisadiyyatı davamlı etmək üçün təsərrüfatı müxtəlif sahələr üzrə genişləndirirəm."

Balakən rayonunda kənd təsərrüfatının inkişafı həm məhsuldarlığın artmasına, həm də sosial rifahın yüksəlməsinə xidmət edir. Fermerlərin işinə dövlət dəstəyi, rayon rəhbərliyinin diqqəti onların fəaliyyətini daha da stimullaşdırır. Bu, həm rayonun, həm də ölkənin ümumi iqtisadi inkişafına töhfə verir.

Kənd təsərrüfatı ölkəmizin iqtisadiyyatında strateji sahədir və bu sahənin inkişafı daim dövlətin diqqət mərkəzindədir. Balakən rayonunda da son aylarda kənd təsərrüfatının müxtəlif istiqamətlərində mühüm işlər görülür, fermerlərə dəstək göstərilir, onların fəaliyyətini genişləndirmək üçün təşviqedici tədbirlər həyata keçirilir. Rayon rəhbərliyi bu prosesləri yaxından izləyir, təsərrüfatçılarla görüşərək onların qayğı və problemləri ilə maraqlanır.

### Arpa biçini – zəhmətin nəticəsi

Rayon rəhbəri Natiq Ağayev təsərrüfatçı Nüsrət Əsgərovun sahəsində arpa biçini prosesini izləyib. Təsərrüfatçı bildirib ki, havalar əlverişli keçərsə, bu il bir hektardan 5-6 ton məhsul əldə edəcəyini gözləyir. Kombaynın bunkerinin dolduğunu göstərən işığın uzaqdan görünməsi təsərrüfatçının üzündə sevinc doğurmuşdu. Bu, zəhmətin real bəhrəsi idi.

### Meyvə bağlarında bolluq və iş yerləri

Növbəti dayanacaq təsərrüfatçı Zaur Əhmədiyevin ucsuz-bucaqsız meyvə bağları oldu. Burada yüzdən çox insan çalışır, gündəlik ruzi qazanaraq evlərinə aparırlar. Məhsulun yığımından çeşidlənməsinə və qablaşdırılmasına qədər olan proseslərlə tanış olan rayon rəhbəri işçilərlə görüşərək onların iş şəraiti ilə maraqlandı. Mövsümi də olsa bu qədər insana iş yeri yaratmaq təsərrüfatçının işinə məsuliyyətlə yanaşdığını göstərir.



**Yeni Balakən**

# Şəhid ailələrinə diqqət və qayğı



Ölkə rəhbəri İlham Əliyevin həyata keçirdiyi sosial siyasət nəticəsində müharibə veteranlarının, əlillərin və şəhid ailələrinin sosial müdafiəsi daim gücləndirilir. Prezidentin imzaladığı fərman və sərəncamlar bu kateqoriyadan olan insanların həyat şəraitinin yaxşılaşdırılmasına xidmət edir...

Şəhidlərin xatirəsinin əbədiləşdirilməsi və ailələrinin hörmətlə yad edilməsi məqsədilə birinci Qarabağ müharibəsində şəhid olmuş Qərbi Azərbaycan kökənli Pənahov Pənah Məhəmməd oğlunun ailəsi ziyarət edilib.

Ziyarətdə Qərbi Azərbaycan İcmasının Balakən rayon nümayəndəsi Yaşar Məmmədov, Balakən şəhər nümayəndəsi, İncəsənət məktəbinin direktoru Arifə Tağıyeva, Gərəkli kənd Bələdiyyəsinin sədri Ceyran Tağıyeva və "Yeni Balakən" qəzetinin redaktoru Ramazan Abalov iştirak ediblər.

Görüş zamanı şəhidin anası Nəcibə Pənahova oğlu haqqında xatirələrini bölüşərək, onun 1993-cü ildə hərbi xidmətə çağırıldığını, xidmət dövründə göstərdiyi igidlik və qəhrəmanlıqları, 1994-cü ilin fevral ayında Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində döyüş zamanı düşmən tərəfindən vurularaq şəhid olduğunu qeyd edib.

Şəhid Pənahov Pənah hörmət və ehtiramla yad olunub. Ailə üzvləri göstərilən yüksək diqqət və qayğıya görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

**Yeni Balakən**

# 2026-cı ilin məhsulu üçün Balakən rayonunda kənd təsərrüfatı bitkilərinin əkini

2026-cı ilin məhsulu üçün rayonda 13179,4 hektar sahədə yazlıq və payızlıq bitkiləri mövcud olmuş və onun 1201,9 hektarını və ya 9,1 faizini payızlıq əkinlər, 11977,5 hektarını və ya 90,9 faizini isə yazlıq əkinlər təşkil etmişdir.

Rayonda mövcud payızlıq əkinlərin 402,6 hektarını və ya 33,5 faizini dən üçün buğda, 791,3 hektarını və ya 65,8 faizini dən üçün arpa və 8,0 hektarını və ya 0,7 faizini birillik yem bitkiləri təşkil etmişdir.

2026-cı ilin məhsulu üçün 11977,5 hektar sahədə yazlıq əkinlər mövcud olmuşdur ki, ondan 9443,5 hektarını cari ilin yazlıq əkinləri, 2534,0 hektarını isə keçmiş illərin çoxillik otları təşkil etmişdir.

Cari ilin yazlıq əkinlərinin 7701,5 hektarını 81,5 faizini dənli və dənli paxlalılar, 44,0 hektarını və ya 0,5 faizini texniki bitki olan tütün, 289,0 hektarını və ya 3,1 faizini kartof, 667,0 hektarını və ya 7,1 faizini tərəvəz bitkiləri, 153,0 hektarını və ya 1,6 faizini bostan bitkiləri, 589,0 hektarını və ya 6,2 faizini isə yem bitkiləri təşkil edir.

*Əsəbəli Alqayev*
*Balakən Rayon Statistika İdarəsinin rəisi*


**E L A N**

Balakən şəhəri H.Z.Tağıyev küçəsində 0.028 ha həyətyanı torpaq sahəsi satılır. Sotu 7.000 manatdan.
Tel:050 3317174
Gerçək müştərilərin araması tövsiyyə olunur.

**İTMİŞDİR**

Piriyev Abakər Səəddin oğluna məxsus, VÖEN: 3800048411, nəzarət-kassa aparatı itdiyindən etibarsız sayılır.



MƏSUL REDAKTOR: Ramazan ABALOV

Ünvanımız: Balakən şəhər. H.Əliyev pr.40
www.yeni balaken.az
ramazanabal@gmail.com
Mob: 050 518 17 60

HESAB NÖMRƏMİZ:
VÖEN 3800335882
H/h AZ60IBAZ41040019449452514345
Azərbaycan Beynəlxalq Bankın Balakən Filialı.
Kod 805959, VÖEN 9900001881.
M/h AZ03NABZO1350100000000002944. IBAZAZ2X

Qeydiyyat №: 7CADF329A82153
Qəzet Mingəçevir şəhər Poliqrafiya müəssisəsində ofset üsulu ilə çap olunmuşdur.
Tiraj 100